Azərbaycan Respublikası Vəkillər Kollegiyasının
Rəyasət heyətinin sədri cənab Anar Bağırova

Tərtər rayon sakini Kərimov Tofiq Ənvər oğlu tərəfindən
Telefon: 050 545 03 30

# ƏRİZƏ
(öz təşəkkürümə dair)

Hörmətli Anar müəllim!

Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, ölkəmizdə hüququn aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən islahatlar cəmiyyətimizdə ədalətə və qanunun aliliyinə inamı daha da möhkəmləndirmişdir. Bu prosesdə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və onun üzvlərinin peşəkarlığı, yüksək hüquqi bilikləri və öz fəaliyyətlərində prinsipial mövqe nümayiş etdirmələri mühüm rol oynayır. Məhz buna görə Sizə və rəhbərlik etdiyiniz quruma dərin minnətdarlığımı bildirirəm.

2023-cü ildə haqsız yerə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1 və 311.3.3-cü maddələri ilə ittiham olunaraq barəmdə həbs qətimkan tədbiri seçildi. Nəticədə, törətmədiyim əmələ görə iki il müddətində haqsız və əsassız olaraq İstintaq Təcridxanasında saxlanıldım. Halbuki, mən 40 ildən artıq dövlət qulluğunda vicdanla xidmət etmiş, qüsursuz və nümunəvi fəaliyyətimlə fərqlənmişdim. Fəaliyyət göstərdiyim dövr ərzində Tərtər Rayon İcra Hakimiyyəti tərəfindən iki dəfə fəxri fərmanla təltif olunmuş, 44 günlük Vətən müharibəsində göstərdiyim xidmətlərə görə Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi tərəfindən fəxri diplomla mükafatlandırılmışdım.

İstintaq Təcridxanasında keçirdiyim həmin iki il həyatımın ən ağır və sarsıdıcı dövrü oldu. Bu müddət ərzində məhkəmə tərkibi dörd dəfə dəyişdirildi, işə hər dəfə yenidən baxıldı. Elə anlar olurdu ki, ömrümün bu həbsxanada sona çatacağını və etmədiyim əmələ görə günahsız yerə məhkum ediləcəyimi düşünürdüm.

Məhz həmin ümidsiz günlərdə yaxınlarımın dəstəyi ilə "Mirzəyev və Partnyorları" Vəkil Bürosunun vəkili Mirzəyev Şaiq Səyyad oğlu ilə müqavilə bağladım. O, yalnız hüquqlarımın peşəkar müdafiəsini həyata keçirmədi, eyni zamanda mənə mənəvi dayaq oldu, bir an belə ümidimi itirməyə və bədbinliyin məni məğlub etməsinə imkan vermədi. Nəhayət, 27 iyul 2026-cı il tarixində Gəncə Apellyasiya Məhkəməsində barəmdə aparılan cinayət işi üzrə icraat yekunlaşmış, qəbul edilmiş qərarla günahsız olduğum təsdiq edilmiş və hüquqlarım bərpa olunmuşdur. Vəkilim Mirzəyev Şaiq Səyyad oğlunun göstərdiyi yüksək peşəkarlıq, cəsarət, prinsipial mövqe, dərin hüquqi bilik və əzmkarlıq sayəsində bu gün mən 73 yaşımda azadlığıma qovuşmuş, övladlarımın, nəvələrimin və ailəmin yanında olmaq xoşbəxtliyini yaşayıram.

Bu məktubu böyük qürur hissi ilə Sizə ünvanlayıram. Mirzəyev Şaiq Səyyad oğlunun peşəkar fəaliyyəti və hüquqlarımın müdafiəsinə göstərdiyi fədakar münasibət mənə ədalətin bərpa olunacağına inam verdi. Bu səbəbdən ona dərin minnətdarlığımı ifadə etməyi özümə mənəvi borc bilirəm.

Gələcək fəaliyyətinizdə uğurlar, möhkəm sağlamlıq və peşəkar nailiyyətlər arzulayıram.

Hörmətlə,
Kərimov Tofiq Ənvər oğlu ____________

27.07.2026

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 3317
«04» 08 2026